**“Dünya ticarət sistemi və Azərbaycan: mövcud vəziyyət və inkişaf perspektivləri”**

Lamiyə Çobanzadə

Bakı Mühəndislik Universiteti

İqtisadiyyat və İdarəetmə / Dövlət Strukturlarında Menecment

lamiya.chobanzada@gmail.com

Bakı, Azərbaycan

**Giriş :**

Ən qədim zamanlardan, ilk dövlətlərin yaranmasından bəri dövlətlər siyasi cəhətdən söz haqqında sahib olmaq və varlıqlarını qoruyub saxlamaq üçün güclü bir iqtisadiyyata sahib olmalı idilər. Dəyişməyən bir şey var ki, iqtisadiyyatı güclü olan ölkə hər zaman digər sahələrdə də daha güclüdür və digər ölkələrə təsir və təzyiq edə bilir.

Ölkə iqtisadiyyatının təməlini də ticarət təşkil edir. Sadə dillə desək, ölkələr varlıqlarını qoruyub saxlamaq üçün nələrsə alıb, satmalıdırlar. Ancaq həm müəssisə miqyasında, həm də ölkə miqyasında ticarət etmək, beynəlxalq bazara çıxmaq heç də asan deyil.

Məqalədə bəhs edəcəyim mövzu da ticarətdəki bu çətinliklərin həlli məqsədilə yaradılmış Ümumdünya Ticarət Təşkilatı və ölkəmizin bu təşkilata üzvlük məsələsi ilə bağlıdır. Həm iqtisadi, həm də siyasi baxımdan böyük problemlər yaşayan ölkəmiz niyə hələ də bu təşkilata üzv olmayan 23 ölkədən biridir? Qarşımızda olan maneələr nələrdir? Əgər üzv olsaq, bunun ölkə iqtisadiyyatına nə kimi müsbət və ya mənfi təsirləri ola bilər? Bu suallar əsasında ölkəmizin dünya ticarətindəki rolu, mövqeyi, potensial imkanlarını təyin edərək inkişaf prioritetləri haqqında araşdıracağıq.

**1. Qloballaşan dünyada ticarət və Ümumdünya Ticarət Təşkilatı.**

Beynəlxalq iqtisadi münasibətlərin əsas formalarından biri olan beynəlxalq ticarətin ilk işartıları hələ quldarlıq dövründə müşahidə edilməyə başlanmışdır. Buna görə də o beynəlxalq iqtisadi münasibətlərin tarixən birinci və hazırda ən inkişaf etmiş forması sayılır.

Dünyada heç bir ölkənin öz ehtiyaclarını qarşılaya biləcək miqdarda qaynağa sahib olduğunu deyə bilmərik. Məhz bu səbəbdən ölkələr xarici ticarət etmək məcburiyyətindədirlər. Bəzən lazım olandan çox istehsal edərkən, bəzən də ehtiyac duyulandan az və ya heç istehsal etməzlər. Ehtiyacdan çox istehsal edilən malı ehtiyacı olan ölkələrə sataraq əldə etdikləri valyuta ilə özlərində kifayət qədər olmayan malı digər ölkələrdən alırlar. Bu vəziyyət böyük və ya kiçik, inkişaf etmiş və ya inkişaf etməkdə olan bütün ölkələr üçün keçərlidir. Çünki yeraltı və yürüstü zənginliklər ölkələrə ədalətli bir şəkildə paylaşılmamışdır.

Məhz bu asılılıq səbəbindən tarix ərzində ticarət qloballaşaraq müasir dövrümüzdəki vəziyyətini almışdır və günü-gündən inkişaf etməkdədir.

Bu illər ərzində ticarət bir neçə inkişaf mərhələsi keçmişdir. Bunlardan ən əsası müasir ticarət xəritəsinin formalaşmasına səbəb olan İkinci Dünya müharibəsindən sonrakı dövrdür.

İkinci Dünya Müharibəsindən sonra dünya iqtisadiyyatında böyük bir krizis hökm sürürdü. Ağır xarici borclar və yüksək inflyasiya altında ölkələr əzilirdi. Bu vəziyyətdən xilas olmağın tək yolu ölkələrin liberallaşması və beynəlxalq ticarətə açılmaları idi. Ancaq beynəlxalq bazara çıxmaqda maneələr yaranırdı. Və beləliklə məqsədi beynəlxalq ticarətin sərbəstləşdirilməsi olan bir beynəlxalq təşkilata ehtiyac var idi. World Trade Organization (Ümumdünya Ticarət Təşkilatının) yaranma səbəbi də bu idi. Lakin belə çətin bir missiyası olan təşkilatın ərsəyə gəlməsi uzun vaxt tələb edən bir proses olduğundan ÜTT-nin fəaliyyətini müvəqqəti olaraq boynuna götürən General Agreement on Tariffs and Trade (Tariflər və Ticarət üzrə Baş Saziş) yarandı.

Beynəlxalq ticarətin 97%-ini əhatə edən, ona istiqamət verən ÜTT-yə daha yaxından nəzər salaq.

### 1.1 ÜTT-nin yaranma tarixi.

GATT qüvvəyə mindikdən sonra onun üzvləri bazara çıxışın daha da liberallaşdırılması istiqamətində danışıqları davam etdirdilər. Eyni zamanda, danışıqlar aparan tərəflərin sayı getdikcə genişlənirdi. Ümumilikdə, GATT-ın müvəqqəti tətbiqi tarixindən ÜTT-nin yaradılmasınadək 8 danışıqlar raundu keçirilmişdir:

1947-48-ci illərdə Havanada beynəlxalq ticarətin sərbəstləşdirilməsi məqsədilə 50-yə yaxın ölkə təmsilçisi toplanmış və buna uyğun olaraq Beynəlxalq Ticarət

Təşkilatının yaradılmasına dair Qanun hazırlanmışdır. Bu müzakirələr zamanı qəbul edilmiş tarif endirimlərinin üzv ölkələrin parlamentləri tərəfindən təsdiqlənməsinə qədər olan dövr ərzində-1947-ci ilin oktyabrında "müvəqqəti olaraq" GATT yaradılmışdır.

Müvəqqəti status ilə fəaliyyətə başlayan və tətbiq gücü zəif olan GATT-ın xarici ticarətin sərbəstləşməsi və onun mühafizəsində rolu çox mühüm idi. Beləliklə, GATT Ticarət Təşkilatının yaranması yolunda daimi bir əsasa çevrilmişdir. GATT öz varlığını 1994-cü ilə qədər qorumuşdur. Aradan keçən 47 il ərzində bir sıra vacib hadisələr baş vermiş, 8 böyük müzakirə raundu həyata keçirilmişdir.

| Ticarət danışıqlarının GATT raundları | | | |
|---|---|---|---|
| *İl* | *Ad* | *Əhatə olunan mövzular* | *İştirakçılar* |
| 1947 | Cenevrə | Tariflər | 23 |
| 1949 | Annesi | Tariflər | 13 |
| 1951 | Torquay | Tariflər | 38 |
| 1956 | Cenevrə | Tariflər | 26 |
| 1960-1961 | Dillon Raundu | Tariflər | 26 |
| 1964-1967 | Kennedi Raundu | Tariflər və antidempinq tədbirləri. Ticarət və inkişaf bölməsi | 62 |
| 1973-1979 | Tokio Raundu | Tarif və qeyri-tarif tədbirləri, “çərçivə” sazişləri. İstisnaya İmkan Yaradan Hal (inkişaf) | 102 |
| 1986-1994 | Uruqvay Raundu | ÜTT-nin təsis olunması. Tarif və qeyri-tarif tədbirləri, qaydalar, xidmətlər, əqli mülkiyyət, mübahisələrin həlli, tekstil, kənd təsərrüfatı və sairə | 123 |

1986-cı ildən başlayan və 1994-cü ilə qədər davam edən və son raund olan Uruqvay müzakirələri 1995-ci ildə Ümumdünya Ticarət Təşkilatının qurulması ilə nəticələnmişdir.

### 1.2 ÜTT-nin məqsədi :

ÜTT-nin başlıca məqsədi beynəlxalq ticarətin maksimum dərəcədə liberallaşdırılması və onun möhkəm əsaslarının yaradılması, ədalətli rəqabət şəraitinin təminatı və beləliklə də iqtisadi inkişafın və insanların həyat səviyyəsinin yüksəldilməsidir.

### 1.3 ÜTT-nin funksiyaları :

ÜTT-nin ümumi olaraq müəyyən edilən 6 əsas funksiyası vardır. Bu funksiyalar Mərakeş sazişinin 3-cü başlığında göstərilmişdir. Bu funksiyalar aşağıdakılardır:

- ÜTT-nin hüquqi əsasını təşkil edən çoxtərəfli ticarət sazişlərinin qəbul olunmasına və qəbul olunan sazişlərin yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsi;
- ticarət danışıqları üçün forumların təmin edilməsi
- digər beynəlxalq təşkilatlarla əməkdaşlığın həyata keçirilməsi;
- inkişafda olan ölkələrə texniki dəstəyin təmin edilməsi
- üzv ölkələr arasında ticarət mübahisələrinin həll edilməsinə köməklik göstərilməsi;
- Milli ticarət siyasətinin monitorinqi

### 1.4 ÜTT-nin əsas prinsipləri :

ÜTT-nin çoxtərəfli ticarət danışıqlarının Uruqvay raundu nəticəsində formalaşmış "Sazişlər Paketi" əsasında üzv ölkələr arasında ticarət-iqtisadi münasibətlərin tənzimlənməsindən ibarətdir. ÜTT-nin formalaşdırdığı müasir ticarət sistemlərinin əsas prinsipləri aşağıdakılardır :

- *Ayrıseçkiliyə (diskriminasiya) yol verilməməsi prinsipləri:* Ən Əlverişli Rejim (MFN) və Milli Rejim (NT) çoxtərəfli ticarət sisteminin təməl prinsipləridir. Əsas ÜTT Sazişlərində (GATT 1994, GATS, TRİPS, SPS, TBT və s.) əks etdirilən bu prinsiplər öz mənbəyini 1947-ci il Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT) I və III maddələrindən götürür. Mallar baxımından bu prinsiplər aşağıdakını tələb edir:

  - *Ən əlverişli rejim (Most Favoured Nation Clause, Non-Discrimination)* - üzv ölkələr üçün eyni ticarət şəraitinin yaradılması. Üzv ölkələrdən biri hər hansı bir ölkəyə müəyyən əlverişli ticarət şəraiti yaratdıqda bundan şərtsiz olaraq digər üzv ölkələr də yararlanmalıdır. Ancaq bu prinsipin bir sıra istisnaları mövcuddur. Söhbət ilk növbədə GATT 24-cü Maddəsinə uyğun olaraq gömrük birlikləri, azad ticarət zonaları kimi regional ticarət sazişlərindən və "Enabling Clause" kimi qəbul edilmiş və inkişaf etmiş ölkələr tərəfindən birtərəfli qaydada inkişaf etməkdə olan dövlətlərə təqdim olunan Ümumi Prefensiyalar Sistemi (GPS) tətbiqindən gedir.

- *Milli rejim (National Treatment)* - idxal olunmuş əmtəə və xidmətlərlə yerli mal və xidmətlər arasında ayrı-seçkiliyə yol verilməməsi. Bu prinsip daxili bazarın tənzimlənməsinə istiqamətlənən təbirlərdə idxal və yerli mallar arasında ayrı-seçkiliyə yol verilməməsini nəzərdə tutur. Milli rejim prinsipi müəyyən bir mal, xidmət və əqli mülkiyyət bazara daxil olduqdan sonra tətbiq edilir.

### 1.5 Sazişlər :

ÜTT çoxtərəfli ticarət sazişləri əsasında ölkələrarası ticarət münasibətlərinin tənzimlənməsini həyata keçirir. Təşkilatın normativ-hüquqi bazasını çoxtərəfli ticarət sazişləri təşkil edir. Bu sazişlər əmtəə və xidmətlərlə ticarəti, əqli mülkiyyət, ticarət siyasətinin icmalı və mübahisələrin həlli məsələlərini tənzimləyir.

ÜTT-də əksəriyyəti 1986-1994-cü illərdə Uruqvay Raundu danışıqlarının nəticəsində ərsəyə gələn 60-a yaxın saziş və anlaşma, protokol və qərarlar mövcuddur. ÜTT Sazişləri bütün ÜTT üzvləri arasında bərabər səviyyədə məcburi və tətbiq edilə biləndir.

Aşağıdakı cədvəldən göründüyü kimi, ÜTT-nin təsis edilməsi ilə bağlı bir əsas Saziş mövcuddur və bütün digər Sazişlər ona əlavə kimi qəbul edilib. Həmin ÜTT Sazişləri 3 əsas sahəni əhatə edir: mallarla ticarət, xidmətlərlə ticarət və ticarətlə əlaqəli əqli mülkiyyət hüququ.

| *Çətir saziş* | ÜTT-ni təsis edən Saziş | | |
|---|---|---|---|
| | Mallar | Xidmətlər | Əqli mülkiyyət |
| *Əsas prinsiplər* | GATT | GATS | TRIPS |
| *Əlavə təfərrüatlar* | Mallar üzrə digər sazişlər və əlavələr | Xidmətlər üzrə əlavələr | |
| *Bazara çıxış öhdəlikləri* | Ölkələrin öhdəlik cədvəlləri | Ölkələrin öhdəlik cədvəlləri (və MFN istisnaları) | |
| *Mübahisələrin həlli* | Mübahisələrin həlli üzrə Anlaşma | | |
| *Şəffaflıq* | Ticarət Siyasətinin İcmalı Mexanizmi | | |

### 1.6 ÜTT-yə üzvlük :

2018-ci il iyul ayına olan məlumata əsasən ÜTT-nin 164 üzvü vardır. Ən son təşkilata qoşulan dövlət Əfqanıstandır (iyul 2016-cı il). Azərbaycan, Özbəkistan və Türkmənistan istisna olmaqla bütün MDB dövlətləri ÜTT üzvdür.

Hazırda Azərbaycan da daxil olmaqla 22 dövlət üzvlük prosesindədir, onların adları aşağıdakı xəritədə sarı rənglə qeyd olunmuşdur. İran hələ ki, ÜTT-nin üzvü olmayan ən iri iqtisadiyyatı olan ölkədir. Bir sıra dövlətlər, o cümlədən, Belarus aktiv şəkildə danışıqlar aparır. Yalnız Şimali Koreya və Türkmənistan da daxil olmaqla, bir neçə dövlət  ÜTT üzvlüyü üçün müraciət etməmişlər.




ÜTT sistemində üzv ölkələr inkişaf səviyyəsinə görə 4 qrupda birləşdirilir. Bunlar İnkişaf etmiş ölkələr (İEÖ), İnkişaf etməkdə olan ölkələr (İEOÖ), ən az İEÖ-lər, iqtisadiyyatı keçid dövründə olan ölkələrdir.

ÜTT-yə qəbul zamanı ölkələrin inkişaf səviyyəsinə uyğun olaraq statusu fərqləndirilir və bəzi şərtlər də bu statusla əlaqələndirilir.

Bu şərtlərə, əsasən tarif güzəştlərinə keçid dövrü və kənd təsərrüfatında ixraca subsidiyaların həcmi daxildir. Tarif güzəştlərinə keçid dövrü maksimum 25 il üçün nəzərdə tutulur. Belə güzəştlər üçüncü dünya ölkələrinə şamil oluna bilər. İnkişaf etməkdə olan ölkələr üçün güzəştlərin müddəti fərqli ola bilər. Belə ki, ÜTT qəbul zamanı tarif güzəştlərinə görə keçid dövrü üçün Latviyaya 9 il, Qırğızıstana 7 il, Gürcüstana 5 il və Moldovaya 4 il vaxt ayrılıb. Bu müddət bəzi ölkələr üzrə (Çin, Hindistan və s.) 15-25 ili əhatə edir.

İkinci mühüm məsələ-kənd təsərrüfatında ixraca subsidiyaların həcminə qoyulan nisbi kvota ilə bağlıdır. Bu kvota inkişaf etməkdə olan ölkələr üçün subsidiyaların kənd təsərrüfatı məhsulunun ümumi həcmində 10%-i, inkişaf etmiş ölkələr üzrə isə 5%-i miqdarında verilir.

Çünki, tərəfdaş ölkələrin kənd təsərrüfatına subsidiyaları fərqli olduqda, bu, ümumi ticarətə pis təsir edir. Elə Uruqvay Raundunun da əsas tələbi bundan ibarət idi - daxili yardımları tənzimləmək və aşağı salmaq.

Bununla yanaşı, nəzərdən qaçırmaq olmaz ki, bu subsidiyalar limitləşdirilir: “de minimis” adlandırılan həmin subsidiyalar inkişaf etməkdə olan ölkələr üçün illik kənd təsərrüfatı məhsul istehsalının 10%-i həcmindədir. Həmin rəqəm inkişaf etmiş ölkələr üçün 5%-dək aşağı düşür. Qeyd edək ki, ÜTT-nin üzvü olan 30 ölkə aqrar sektora “de minimis”ə nisbətən daha çox subsidiya həyata keçirmək hüququna malikdir. Həmin ölkələrin bu hüququ Uruqvay Raundunun razılaşmalarında əldə etməsi ilə bağlıdır. Ancaq ÜTT-də islahatlar davam etdirildikcə həmin hüquqlar məhdudlaşdırılır.

ÜTT-yə üzv olmayan ölkələr üzvlük üçün müraciət edərək üzv seçilə bilərlər. Bu məqsədlə milli qanunvericilikləri çoxtərəfli anlaşmalardakı qaydalara uyğun hala gətirmək istiqamətində addımlar atılmalıdır.

## 2. Beynəlxalq ticarət və Azərbaycan. ÜTT və Azərbaycan münasibətləri.

18 oktyabr 1991-ci ildə SSRİ-nin dağılması nəticəsində müstəqillik qazanan ölkəmiz müstəqilliyinin ilk illərində bir çox sosial-iqtisadi problemlərlə qarşılaşmış, lakin zamanla bu problemlərin öhdəsindən gəlməyi bacarmışdır. Hətta yeni müstəqil olmuş dövlət olmasına baxmayaraq beynəlxalq iqtisadiyyatda və siyasətdə vacib ünsürə çevrilmişdir.

Müasir dünyamızda öz yerini tutmağa səy göstərən Azərbaycan Respublikası da, həmçinin ÜTT-nin vəd etdiyi güzəştlərdən yararlanmaq üçün ÜTT-yə üzv olmaq niyyətindədir.

### 2.1. Azərbaycan ÜTT-yə niyə üzv olmalıdır.

Məqsəd aydındır - Azərbaycan qlobal iqtisadi və ticari inteqrasiyadan kənarda qalmaq niyyətində deyil. Bu inteqrasiyanın möhkəmləndirilməsinin yolu isə ÜTT üzvlüyündən keçir.

ÜTT-yə üzvlük ölkələr arasında olan imkanlar bərabərsizliyini müəyyən mənada aradan qaldıraraq hamının ticarətdən faydalanmasını mümkün edir.

“Ümumdünya Ticarət Təşkilatına daxil olmaq olduqca vacibdir. Beynəlxalq ticarətin 97%-i Ümumdünya Ticarət Təşkilatına üzv olan ölkələr tərəfindən idarə olunur. Bu konteksdə Ümumdünya Ticarət Təşkilatından kənarda qalmaq , xüsusən də böyük ticarət dövriyyəsinə malik olan ölkələrlə ticarət dövriyyəsini birmənalı şəkildə məhdudlaşdırır. Buna görə də Azərbaycanın Dünya Ticarət Təşkilatına üzvlüyünün sürətlənməsinə ehtiyac var.

2018-ci ilin qeyri-neft sektoru üzrə ixrac icmalına diqqət yetirsək, Azərbaycan məhsullarının ən çox idxal olunduğu ölkələrin Rusiya, Türkiyə, Gürcüstan, Qazaxıstan kimi sərhəd qonşuları və ya sıx iqtisadi əlaqədə olduğu ölkələr olduğunu, Avropa və ya inkişaf etmiş ölkələrə məhsul ixracının ixrac payında çox cüzi miqdar olduğunu müşahidə edərik.




ÜTT-yə üzv olmaq bizə ÜTT-yə üzv olan 164 ölkə ilə sıx ticarət əlaqəsi yaratmaq şansını yaradaraq Azərbaycanın ixrac potensialının artırılmasına və nəticədə beynəlxalq ticarətdə mövqeyinin yüksəlməsinə, “Made in Azerbaijan” brendinin tanıdılmasına gətirib çıxaracaq.

Əlavə olaraq, ÜTT-yə qəbul ölkənin ticarət siyasətini proqnozlaşdırmağa imkan verəcək, şəffaflıq artacaq, beynəlxalq ticarət tərəfdaşları çoxalacaq və iqtisadi münaqişələr daha səmərəli həll olunacaq.

1995-ci ildə ÜTT-yə üzv olmuş Türkiyə timsalında təşkilata üzvlüyün ixracdakı artıma təsirinin şahidi ola bilərik. 2000-ci illərdən sonra ölkənin ixrac göstəricilərində kəskin artım müşahidə olunur.

Ekspert K.Kərimzadə bildirir ki, ÜTT yə üzvlük bazara rəqabət gətirmək və qiymətlərin ucuzlaşması ilə yanaşı xidmətdən istifadənin keyfiyyətinə də təsir göstərir: “Məsələn, Çinin təşkilata üzvlüyündən sonra ölkənin mobil sektoruna yeni kompaniyalar daxil oldu və telefon danışığı xərcləri 30 % azaldı. Rabitə xidmətlərinin keyfiyyətində dəyişiklik baş verdi”.

Onun fikrincə təşkilata üzvlük xarici investisiyaların həcmində birbaşa artıma gətirib çıxarır: “Kiçik ölkələrdə investisiya mühitinin yaradılması, sığorta və bank sektorlarının inkişafı və inamın yaradılması sahəsindəki problemlər, o cümlədən qanunvericilik bazasına tez-tez edilən dəyişikliklər investorların sərmayə qoymaq üçün seçimlərini digər ölkələrə yönəltmələrinə şərait yaradır. Ümumdünya Ticarət Təşkilatı islahatları və qanunları maliyyə sektorunun liberallaşmasını təmin etməklə, xarici inverstorlar üçün əlverişli investisiya mühiti yaradır. O cümlədən maliyyə sektoruna dövlət müdaxiləsini azaltmaqla özəl sektorda fəaliyyət göstərmək təşəbbüsü doğurur ki, bu da son nəticədə xarici investisiyaların ölkə iqtisadiyyatına axınını gücləndirir.”

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin ÜTT qəbulu üzrə katibliyinin araşdırmalarına görə, xarici iqtisadi münasibətlər sahəsində təhlillər göstərir ki, investorlar əsasən investisiya mühiti daha əlverişli olan və investisiya siyasəti proqnozlaşdırıla bilən ölkələri axtarırlar. ÜTT-yə üzvlük isə xarici investisiyaların cəlb edilməsinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir, çünki “şəffaflıq” ÜTT-nin əsas prinsiplərindən biridir. Bununla yanaşı, xarici sahibkar ÜTT-nin digər əsas prinsipi olan – “milli rejim”in (xarici və yerli sahibkarlar arasında ayrı-seçkiliyə yol verilməməsi) tətbiq olunduğu ölkələrə ehtiyat etmədən investisiya yönəldir. Bu da özlüyündə uzun-müddətli iqtisadi artımın əldə edilməsinə səbəb olacaq.

## 2.2 Azərbaycanın ÜTT-yə üzv olmasındakı məqsədlər :

- Dünya iqtisadiyyatı sisteminə inteqrasiya prosesini sürətləndirmək;
- ÜTT-yə üzv olan ölkələrin bir-birinə verdikləri güzəştlərdən faydalanmaq;
- Dünyanın əksər ölkələri ilə ÜTT tərəfindən qəbul edilmiş ümumi qaydalar əsasında ticarət əməliyyatları həyata keçirmək;

- Ölkədə aparılan iqtisadi islahatlara beynəlxalq təşkilatlar, eləcə də inkişaf etmiş ölkələr tərəfindən yardımın artırılmasına nail olmaq;
- ÜTT qaydalarını tətbiq etdikdən sonra daha çox birbaşa xarici sərmayə cəlb etmək;
- ÜTT-nin mübahisələrin həlli mexanizmindən istifadə etmək imkanını əldə etmək.

### 2.3 Azərbaycanın ÜTT-yə üzv olmasında qarşıya qoyulmuş hədəflər :

- İnkişaf etməkdə olan ölkələrə (İEOÖ) müxtəlif xarakterli yardımların (heyvan və bitki sağlamlığı standartları, texniki standartlar, telekommunikasiya və s. üzrə) göstərilməsi;
- Kənd təsərrüfatının subsidiyalaşdırılması üzrə limitin (de minimis) İEOÖ-lər üçün nəzərdə tutulmuş 10% həddində müəyyənləşdirilməsi (İEÖ-lər üçün 5%);
- ÜTT-nin TBT və SPS sazişlərinə müvafiq olaraq texniki qaydalar, standartlar, keyfiyyətin qiymətləndirilməsi prosedurları və sanitar-fitosanitar tədbirlərin hazırlanması və həyata keçirilməsi zamanı İEOÖ-lərin xüsusi ehtiyaclarının nəzərə alınmasının vacibliyinin qəbul edilməsi;
- ÜTT-nin SPS, TBT, TRİPS və digər sazişlərində nəzərdə tutulmuş İEOÖ-lərə texniki yardımın göstərilməsi və s.

### 2.4 Azərbaycanın ÜTT-yə üzvolma prosesi.

ÜTT-yə qəbul mürəkkəb proseduraları özündə birləşdirən hər bir ölkə üçün xarakterik xüsusiyyətlər kəsb edən məsələdir və onun ömrü 3 ildən 15 ilədək çəkə bilər. Çinin timsalında bu proses 15 ilə, Qırğızıstanda 3 ilə yekunlaşıb, Monqolustanın isə demək olar ki, bir neçə istisna olaraq əksər idxal rüsumlarına sıfır dərəcə qoyması bu ölkənin ÜTT-yə qəbulunu daha da sürətləndirib.

Azərbaycan Respublikasının ÜTT-yə üzv olma niyyətini əks etdirən müraciəti 23 iyun 1997-ci il tarixində ÜTT Katibliyinə təqdim olunmuşdur. 16 iyul 1997-ci ildə isə müraciətlə əlaqədar ÜTT tərəfindən İşçi Qrupu yaradılmışdır. Bugünə qədər İşçi Qrupu 11 görüş keçirmişdir

Azərbaycan Respublikasının ÜTT-yə üzv olması işləri üzrə Komissiyanın qəbul etdiyi Üzvolma Konsepsiyasına əsasən ÜTT ilə danışıqlarda Azərbaycan Hökumətinin mövqeyi 6 prinsipə əsaslanır:

- Azərbaycan inkişafda olan keçid iqtisadiyyatlı ölkə olduğunu nəzərə alaraq ÜTT çərçivəsində digər ölkələrə verilmiş güzəştlərdən yararlanmaq;
- ÜTT qaydaları tam tətbiq edilənədək maksimal keçid dövrünün verilməsi;
- Sənaye üçün mühüm əhəmiyyəti olan malların yüksək idxal gömrük rüsumlarının tətbiqinə mail olmaq;
- Rüsumların aşağı salınması qaçılmaz olduğu halda ortalama rüsumların eyni səviyyədə saxlanılması məqsədi ilə əhəmiyyəti az olan mallar üzrə rüsumların endirilməsi, digərlərinin isə əksinə yüksəldilməsinə nail olmaq;
- İEOÖ-lərə verilən xüsusi və diferensial güzəştli rejimin Azərbaycana da verilməsinə nail olmaq;
- Kənd təsərrüfatı sahəsində subsidiyalar üzrə danışıqlar zamanı illik kənd təsərrüfatı məhsulu istehsalının 10% həcmində subsidiya verilməsinə nail olmaq.

### 2.5 Azərbaycanın ÜTT-yə üzv olmasında mümkün çətinliklər :

1. Kənd Təsərrüfatı üzrə Saziş üzv dövlətlərin öhdəliklər cədvəlində əks olunmamış kənd təsərrüfatı məhsullarına ixrac subsidiyalarını qadağan edir. Öhdəliklər cədvəlində əks olduqda belə, Saziş üzv ölkələrdən ixrac subsidiyaları üçün xərclənən məbləğin, eləcə də subsidiyanın yönəldiyi ixrac həcminin azaldılmasını tələb edir. 15-18 dekabr 2015-ci il tarixində Nayrobidə keçirilmiş 10-cu Nazirlər Konfransında qəbul edilmiş Qərara əsasən:

- İnkişaf etmiş üzv ölkələr öhdəlik cədvəllərində hələ də qalmış ixrac subsidiyalarını dərhal aradan qaldırmalıdırlar;
- İnkişaf etməkdə olan üzv ölkələr 2018-ci ilin sonuna qədər öz ixrac subsidiyalarını aradan qaldırmalıdırlar.

Bununla əlaqədar, Azərbaycan Respublikası tərəfindən hal-hazırda tətbiq olunan ixrac subsidiyaları üzvolma prosesində əsas maneələrdən biri kimi çıxış edə bilər.

2. Azərbaycan Respublikasında bir sıra mallar münasibətində (neft məhsulları) idxala və yerli istehsala fərqli aksiz dərəcələri tətbiq olunur ki, bu da ÜTT-

nin əsas prinsiplərindən biri olan Milli Rejimə ziddiyət təşkil edir. Bu səbəbdən qeyd olunan uyğunsuzluğu da üzvolma istiqamətində əsas maneə kimi qeyd etmək olar.

3. Xidmətlər sahəsində əsas maneə ondan ibarətdir ki, xarici bankların Azərbaycanda fəaliyyəti ilə əlaqədar müəyyən məhdudiyyətlər mövcuddur ki, bu da öz növbəsində Milli Rejim prinsipindən kənarlaşma təşkil edir.

4. Yuxarıda qeyd olunanlarla yanaşı milli standartlaşdırma sistemində (TBT), eləcə də sanitar-fitosanitar sahəsində (SPS) mövcud çatışmamazlıqların aradan qaldırılması məsələsi də gündəmdə duran əsas məsələlərdən biri kimi qeyd oluna bilər.

### 2.6. ÜTT-yə üzv olmanın Azərbaycana müsbət və mənfi təsirləri :

ÜTT beynəlxalq ticarəti maksimum səviyyədə liberallaşdıraraq sərbəst və şəffaf rəqabət şərtləri altında rifah səviyyəsinin artırılmasını hədəfləmiş bir qurumdur. Bu quruma üzv olmaqla ölkəmizin bəzi istiqamətlərdən qazanc əldə edəcəyi kimi bəzi istiqamətlərdən də zərər edəcəyi müşahidə olunur. ÜTT-yə üzvlüyün müsbət və mənfi nəticələrini bu şəkildə sıralaya bilərik :

- **Müsbət təsirlər :**

- Xarici ticarət prosesinin təxminən 150 ölkənin qəbul etdiyi ümumi qaydalar çərçivəsində həyata keçirilməsi, beynəlxalq iqtisadiyyat sisteminə inteqrasiyanın sürətləndirilməsi;
- Başlıca ticarət ortağı və qonşularla eyni haqlara sahib olmaq, fərqli tətbiqlərlə qarşılaşmamaq;
- ÜTT-yə üzv ölkələrin öz aralarında tətbiq etdikləri endirimdən faydalanmaq;
- İqtisadi problemlərin həllində ÜTT qaydaları və birlik mexanizmindən faydalana bilmək;
- ÜTT çərçivəsində çoxtərəfli ticarət sisteminin inkişaf etdirilməsi və bu mövzu ilə bağlı iclaslarda iştirak hüququ;
- Mövcud standartların beynəlxalq tələblərə uyğunlaşdırılması;

- Yeni gömrük tənzimləmələri nəticəsində maliyyətdəki azalmanın mal və xidmətlərə əks olunması və nəticədə xalqın ucuz qiymətə mal və xidmət alma imkanı əldə etməsi;
- Reallaşdırılacaq yeniliklərlə bərabər iqtisadi fəaliyyətlərin inkişafında istifadə üçün ehtiyac duyulan investisiyanın həm beynəlxalq təşkilatlar, həm də digər ölkə qaynaqlarından daha rahat əldə edə bilmək;
- Ölkənin sahib olduğu qaynaqların tənzimlənməsiylə inkişaf edən iqtisadiyyatlarda rəqabət üstünlüklərinin olması;
- Qanuni tənzimləmələrin inkişaf etdirilməsi;
- Ölkədə reallaşdırılan iqtisadi yeniliklərin doğruluğunun təsdiq edilməsi;
- Ticarət nişanı və müəllif hüquqlarının qəbul olunan qaydalar çərçivəsində həyata keçirilməsi;
- Artan şəffaflıq nəticəsində, xüsusilə, qeyri-neft sektoruna xarici investisiya axımının artması (Azərbaycan hal-hazırda qeyri-neft sektorunun inkişafına istiqamətlənən proqramlar həyata keçirməkdədir. Ən böyük nümunə kimi Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətini göstərə bilərik.)
- İqtisadi inkişafla bağlı kifayət qədər məlumata sahib olması və dövlətin qəbul edəcəyi qərarları əvvəlcədən müzakirə edə bilməsi;
- Mövcud tətbiqlərin şəffaflaşdırılaraq prosedураların sadələşdirilməsi; sahibkarlıq fəaliyyəti xərclərini və istehsal xərclərini artıran dolayı müdaxilələrin azaldılması ilə sui-istifadənin qarşısının alınması.

• **Mənfi təsirlər :**

- Xarici ticarətdə kvotadan istifadənin mümkün olmaması;
- Ticari liberallaşma səbəbilə qoruyucu tədbirlərin kifayətsiz qalması nəticəsində bazarın daha ucuz olan xarici mallar tərəfindən doldurulması;
- Qoruyucu tədbirlərin səmərəli olub olmadığına baxmadan, daxili bazarın bütün sferalarında sərbəst rəqabət şəraitinin yaradılmaması nəticəsində daha güclü və təcrübəli olan xarici şirkətlərin üstünlük qazanmaları;
- Reallaşdırması çətin olan və çox maliyyə tələb edən bəzi məsələlərin həlli prosesinin hələ başlanğıc səviyyəsində imkansız olması;
- Keçid dövründə rəqabətçi və ixraca istiqamətlənən istehsal tərzi yaradılmazsa, sorakı mərhələlərdə problem yaranması;

- Xidmət sektorunda daha ucuz və keyfiyyətsiz xidmət təklif edənlərin payının artması;
- Bəzi subsidiya tətbiqlərinin gələcəkdə istifadə oluna bilməməsi;
- Qoruyucu tədbirlərin qaldırılmasıyla ödəniş balansında yaranacaq defisitin ölkə rezervlərini əritməsi;
- Gömrük və digər vergi tətbiqlərindəki düşüşlə dövlət büdcəsinin gəlirlərində gözlə görünür bir azalmanın olması (Təqribən 10% olan idxal gömrük vergilərinin büdcədəki payı 24%dir)
- Üzvlüyün başlanğıc mərhələsində mövcud şərtlərin sahibkarlıq fəaliyyəti və fərdi inkişaf imkanları üçün kifayət qədər olmaması;
- Texnologiya idxalında patent haqlarına ödənişlərlə istehsal qiymətinin artması
- Beynəlxalq bazarda artan rəqabət gücünün bir nəticəsi olaraq rəqabətə dayanıqlı olmayan mal və xidmətlərin adaptasiyasında geriləmə

**Nəticə və təkliflər :**

Nəticə olaraq, Azərbaycanın ÜTT-yə üzvlüyü mərhələsi ilə bağlı bir sıra təklifləri qeyd edə bilərik.

- Bir sıra iradlara baxmayaraq, tarif dərəcələri ilə bağlı razılaşmalar bu təşkilat ilə aparılan danışıqlarda müəyyənləşdirildiyindən ÜTT-ə üzvlük hökumətin daxili bazarı qorumaq imkanlarının tamamilə sıradan çıxması demək deyil. Məsələ ondadır ki, bu təşkilata üzvlük heç də tariflərin kəskin aşağı salınması demək deyildir. Tariflər ikitərəfli danışıqlar əsasında müəyyənləşdirilir və bəzi tariflər, hətta, artırıla bilər. Keçid dövründə ÜTT-ə üzvlükdən sonra hökumət daxili bazarı qorumaq imkanlarından məhrum olmayacaq. ÜTT üzvlərinə müvəqqəti müdafiə tədbirləri həyata keçirməyə icazə verilir. Bütövlükdə, vəziyyətin hansı istiqamətdə dəyişəcəyi hər bir dövlətin xarakter və qurluşundan və eləcə də onun ÜTT ilə danışıqlardakı mövqeyindən asılıdır.

Azərbaycanın ÜTT-ə üzvlük prosesinin sürətlənməsi və bu təşkilata üzvlüyün ölkə iqtisadiyyatına neqativ təsirlərini azaltmaq üçün aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğun hesab edilə bilər:

- Üzvlük görüşlərində həm keçid iqtisadiyyatına malik, həm də inkişaf etməkdə olan ölkə statuslarından faydalanmalıdır. Azərbaycan mövcud mövqeyi ilə

ÜTT sənədlərində hər iki statusun da qeyd etdiyimiz üstünlüklərindən faydalanmağa nail olmalıdır.

- Hazırlıq mərhələsi davam edərkən ölkədə güclü rəqabət şəraiti yaradılaraq istehsal təşviq edilməlidir. Sonrakı mərhələlərdəki rəqabət gücünə çatmaq üçün əvvəlcədən tədbirlər görülməlidir.

- ÜTT Katibliyinə veriləcək xidmətlərlə ticarət üzrə ACC5 cədvəli hazırlanmalıdır. Bu cədvəldə ölkədə bütün xidmət sahələrində xarici və yerli sahibkarlara tətbiq olunan siyasət, güzəştlər rejimi, üstünlüklər göstərilməlidir. Sənədlərin hazırlanması ilə eyni vaxtda xidmətlərin təhlili aparılmalıdır. Məsələn, Azərbaycanda yüksək səviyyəli mühasib ixtisasına malik mütəxəssislər olduğu halda bu bazarın xarici mütəxəssislər üçün tamamilə liberallaşdırılması neqativ sosial nəticələrə gətirib çıxara bilər.

- Əqli mülkiyyətlə bağlı danışıqların Azərbaycan üçün çətin olmayacağını ehtimal etmək mümkündür. Belə ki, ÜTT-nin tələblərinə uyğun olaraq Azərbaycan, sənaye mülkiyyətinin və əqli mülkiyyətin qorunması sahəsində əksər Konvensiyaların üzvüdür. Eyni zamanda müəllif hüququ sahəsində milli qanunvericiliyin artıq ümumən uyğunlaşdırılması aparılmışdır.

- Son üzvolmalar zamanı inkişaf etmiş ÜTT üzvləri yeni üzv olan ölkələrin ÜTT-nin məcburi olmayan Sazişlərinin tətbiqinə dair öhdəliklər götürməsinə cəhd etmişlər və bir çox hallarda buna nail olmuşlar. Buna görə də, ÜTT-nin məcburi olmayan qaydalarının öyrənilməsinə və həmin qaydalar üzrə öhdəliklərin götürülməsi cəhdlərinə hazır olmağa xüsusi diqqət yetirilməlidir. Prinsip etibarilə bu mühüm əhəmiyyət kəsb etməsə də, ölkəmizin də qarşılaşa biləcəyi problemlərdəndir.

- ÜTT-yə qəbul olmanın itkidən çox qazanc gətirməsi ölkənin iqtisadi təməlinə və inkişaf səviyyəsinə bağlıdır. Dolayısıyla Azərbaycanın mövcud şərtləri üzvlük mərhələsinə hazır olmalıdır. Unutmaq lazım deyil ki, ÜTT-yə üzvlük məqsəd deyil, vasitə olmalıdır. Dünya iqtisadiyyatına inteqrasiya, xarici ticarətin liberallaşması, maneələrin aradan qaldırılması, şəffaflığın artırılması, qanunların beynəlxalq standartlara uyğunlaşdırılması məqsədlərinə çatmaq üçün bir vasitə olmalıdır.

**İstifadə olunmuş mənbələrin siyahısı :**

1. Səma Ağakişiyeva, “Azerbaycanın Dünya Ticaret Örgütü ile ilişkileri” mövzusunda tezisi

2. www.wto.az

3. www.wto.org

4. Tural Quliyev, “Ümumdünta Ticarət Təşkilatı və Azərbaycan” mövzusunda dissertasiya

5. Cihan Bulut, “Azerbaycanın Dünya Ticaret Örgütü Üyeliğinin Değerlendirilmesi”

6. https://azertag.az/xeber/_quotIxrac_Icmali_quot_Azerbaycandan_esasen_ne_ixrac_olunur-1071637

7. https://www.economy.gov.az/article/vto/21561

8. http://modern.az/az/news/6077

9. Vüqar Bayramov, Azərbaycanın ÜTT-ə Üzvlük Prosesinin Qiymətləndirilməsi üzrə Siyasət Sənədi